# Kitabxanadan məmnunluq sorğusunun təhlili

**27 yanvar 2025 – 12 fevral 2025** tarixləri arasında keçirilmiş kitabxana xidmətlərinə dair sorğunun əsas məqsədi, yalnız tələbələrin kitabxana xidmətlərindən məmnunluq səviyyəsini öyrənmək, onların ehtiyac və gözləntilərini müəyyənləşdirmək, həmçinin mövcud xidmətlərin təkmilləşdirilməsi və inkişaf etdirilməsi üçün məlumat toplamaqdır. Sorğuda 268 nəfər iştirak etmişdir.

1. **Kitabxananın hansı korpusdakı oxu zalından istifadə edirsiniz?**

268 responses




Keçirilən sorğunun nəticələrinə görə, tələbələrin **75.7%**-i **Əhməd Rəcəbli Korpusundakı** oxu zalından, **18.7%**-i **İçərişəhər Korpusundakı oxu zalından**, **4.1%**-i isə **Filologiya Korpusundakı** oxu zalından istifadə edir. **1.5%** tələbə kitabxanadan istifadə etmədiyini bildirmişdir.

2. **Kitabxanadan nə qədər tez-tez istifadə edirsiniz?**

268 responses



| | Faiz göstəricisi% | Respondentin sayı |
|---|---|---|
| Hər gün | 8,6% | 23 |
| Həftədə bir neçə dəfə | 23,1% | 62 |
| Ayda bir neçə dəfə | 22,4% | 60 |
| Nadir hallarda | 34% | 91 |
| Heç vaxt | 10,1% | 27 |
| Digər | 1,8% | 5 |

### 3. Kitabxanada ən çox hansı materiallardan və nədən istifadə edirsiniz?




| | Respondentin sayı | Faiz göstəricisi% |
|---|---|---|
| Dərsliklər | 93 | 34,7% |
| Bədii ədəbiyyat (detektiv, fantastika, tarixi roman, poeziya və s.) | 28 | 10,4% |
| Elmi ədəbiyyat (monoqrafiya, elmi məqalələr və s.) | 17 | 6,3% |
| Motivasiya və şəxsi inkişafa dair kitablar | 31 | 11,6% |
| Kompüterlər | 84 | 31,3% |
| Digər | 15 | 5,7% |

## 4. Kitabxanadakı materiallar sizi qane edirmi?




| | Respondentin sayı | Faiz göstəricisi% |
|---|---|---|
| Tam | 142 | 53% |
| Qismən | 104 | 38,8% |
| Narazıyam | 12 | 4,5% |
| Digər | 10 | 3,7% |

## 5. Tədqiqat zamanı hansı formada kitabxana xidmətlərinə üstünlük verirsiniz və ya istifadə etmək istərdiniz?




| | Respondentin sayı | Faiz göstəricisi% |
|---|---|---|
| Elektron poçt vasitəsilə | 88 | 32,8% |
| Kitabxanada fərdi konsultasiya | 61 | 22,8% |
| Virtual konsultasiya (kitabxana saytı üzərindən, whatsapp və s.) | 46 | 17,2% |
| Printer və ya skanerlərdən istifadə (özünəxidmət) | 39 | 14,6% |
| Sizin təklifiniz | 25 | 9,3% |

## 6. Kitabxanaçıların işini necə qiymətləndirirsiniz?

268 responses




## 7. Onlayn kitab platformasından (Perlego) istifadə edirsinizmi?

268 responses




| | Respondentin sayı | Faiz göstəricisi% |
|---|---|---|
| Bəli, istifadə edirəm | 78 | 29,1% |
| Xeyr, istifadə etmirəm | 142 | 53% |
| Məlumat almaq istəyirəm | 44 | 16,4% |
| Digər | 4 | 1,5% |

## 8. Kitabxananın hansı gün və saatlarda açıq olmasını istərdiniz ?

268 responses



| | Respondentin sayı | Faiz göstəricisi% |
|---|---|---|
| Hazırkı günlər və saat aralığı məni qane edir | 154 | 57,5% |
| 7/24 | 68 | 25,4% |
| Şənbə və bazar günləri | 35 | 13,1% |
| Digər | 7 | 4% |

## ➢ Tələb və ya təkliflər

Tələbələr tərəfindən verilən təkliflərə əsasən, kitabxana xidmətlərinin təkmilləşdirilməsi üçün bir neçə istiqamətdə təkliflər irəli sürülmüşdür:

1. **Kitabxana şəraiti**: Kitabxanada rahat oxuma və işləmə zonalarının yaradılması təklif edilir. Ayrıca, kitabxanaya su və ya çay gətirilməsinə icazə verilməsi, tələbələrin daha rahat oxumaq və işləmək imkanını təmin edərdi.
2. **Kitabxanada səs-küyün azaldılması**: Kitabxanada bəzi hallarda səs-küyün həddindən artıq olması narahatlıq yaradır. Bu məsələnin həlli üçün daha sərt xəbərdarlıqların edilməsi təklif olunur.
3. **Kitabların evə götürülməsi**: Kitabxanada olan bəzi kitabların tələbələrə evə götürülməsi və oxuyub qaytarılması şərti ilə verilməsi arzulanır.
4. **Kompüterlərin vəziyyəti**: Kitabxanada olan kompüterlərin təkmilləşdirilməsi, saylarının artırılması və işlək vəziyyətə gətirilməsi tələb olunur.
5. **Online xidmətlər**: Tələbələr online xidmətlərdən istifadə etməyə üstünlük verirlər. Bu baxımdan, kitabxana xidmətlərinin daha çox onlayn şəkildə təqdim edilməsi nəzərdə tutulur.
6. **Kitabxana qeydiyyatı və tədris prosesinə inteqrasiya**: Universitetə qəbul zamanı tələbələrin kitabxana qeydiyyatının başlanması və dərslərin bir hissəsi olaraq müəllimlər tərəfindən kitabxanaya yönləndirmələr təklif edilir.
7. **İnternetə daxil olmaq**: Tələbələrin şəxsi kompüterləri ilə internetə daxil olmaq imkanı yaradılmalıdır, çünki bu, onların akademik həyatını asanlaşdırır.
8. **İşçi heyəti və müştəri xidməti**: Kitabxana işçilərinin daha səmimi və yardımsevər olmaları, sərt yanaşmalardan çəkinmələri təklif olunur.
9. **İmtahan günləri və açılış saatları**: İmtahan günlərində kitabxananın daha tez açılması tələb olunur.
10. **Kitab fondu**: Kitab fondu genişləndirilməli, xüsusən müxtəlif sahələr üzrə əlavə kitablar, o cümlədən psixologiya və digər ixtisaslara aid dərsliklər təklif edilir.

Sorğu linki: https://tinyurl.com/39ae79vn